# Buzları əridən söz alovları

## *Əli Rza Xələflinin "Yazıçının vətən dağı" kitabının II cildi haqqında düşüncələrim*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar*
*və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Çoxları deyir, elə mən də bu fikirlə şərikəm ki, adamlar tarixi bədii ədəbiyyatdan daha yaxşı mənimsəyir, daha əhatəli qavrayırlar, nəinki elmi ədəbiyyatdan. Əlbəttə, bu məsuliyyət yazıçının üzərində qalır; əgər yazıçı tarixi faktlara sədaqətini qoruya bilirsə, əsas aparıcı tarixi hadisələrə münasibətdə obyektivliyini saxlayırsa. Yazıçı Ulduz Qasımın Qarabağnamələr salnaməsini zənginləşdirən əsərləri işğal dövrünün mənzərəsini sözün həqiqi mənasında mükəmməlliyi ilə canlandıra bilir. Çünki müəllif həm tarixi hadisələrə obyektiv münasibətini qoruyur, həm də həmin hadisələrə yazıçı mövqeyindən yanaşaraq təsirli, emosional fon verə bilir. Ona görə də yeni nəsil Azərbaycan oxucusu Ulduz Qasımın Qarabağ dəhşətlərini əks etdirən romanlarına xüsusi maraq göstərir. Onu da qeyd etməyi özümə borc bilirəm ki, hər hansı bir yazıçının oxunması üçün, xüsusilə indiki sosial şəbəkələrin fəallığı dövründə cəmiyyətlə yazıçı arasında mükəmməl düşüncə körpüsünə ehtiyac var. Zənnimcə, bu tələbatı ədəbiyyatşünasların, tənqidçilərin, xüsusilə publisistlərin yazıçı sənətinə münasibətini ifadə edən əsərlərinin rolu böyükdür.

Əli Rza Xələflinin "Yazıçının vətən dağı" kitabı iki cilddən ibarətdir. Mən artıq birinci cild haqqında oxucularla təəssüratımı bölüşmüşəm. İndi ikinci cild haqqında müəyyən təsəvvür - təəssüratlarımı oxuculara çatdırmaq istərdim. Məlumdur ki, ötən il ardıcıl olaraq "Kredo" qəzeti Ulduz Qasımın yaradıcılığına xüsusi diqqət göstərdi. Onun ayrı-ayrı əsərlərindən bədii parçalar, kiçik esselər, kitabları haqqında məlumatlar oxucu yaddaşına belə bir qənaəti diktə etdi ki, Ulduz Qasım yorulmadan fəal yaradıcılıq yolu keçir.

İndi dəbdədir, bir neçə yüz il əvvəlki dövrlərin tarixi hadisələrinə, görkəmli şəxsiyyətlərinə yazıçılar bədii yaradıcılıqları ilə güzgü tuturlar. Mən bunun əleyhinə deyiləm. Amma unutmaq olmaz ki, dövrün şahidi olan yazıçı öz zamanında baş verən hadisələrə yazıları ilə münasibət bildirməlidir. Axı, son otuz il ərzində bizim doğma Qarabağımız erməni vandalizminin işğalına məruz qalıb. Düşmən qüvvələrin ayaqları altında Qarabağ əzilib, onun şəhərləri talan edilib. Ən böyük yaşayış məskənləri bəşər sivilizasiyasının incisi olan Ağdam, Kəlbəcər, Laçın, Cəbrayıl, Füzuli kimi şəhərlər dözülməz vəhşiliklərə məruz qalıb. Ağdamın, Füzulinin, Cəbrayılın şəhər kimi yoxluğu, bu gözəl şəhərlərin, demək olar ki, izinin itirilməsi dəhşətli tarixi yaralar kimi Azərbaycanın yaddaşında həmişə göynəyəcək.

Məlumdur ki, düşmən əvvəlcə ərazini işğal edir. Öz təbiətinə uyğun olaraq, insanları vəhşicəsinə öldürür. Canını qurtarıb qaçanları yerindən-yurdundan məhrum edir. Beləliklə, insanlığa yaraşmayan cinayətlər törənmiş olur. Bəs yazıçı belə hadisələrə necə biganə ola bilər.

Ümumiyyətlə, soyuq havada suların donması təbiət hadisəsidir. Amma ədəbiyyat olmasa, sənət olmasa, insanların da düşüncəsi dona bilər. Düşüncəsi donuq insan ətrafında baş verən hadisələrə biganə olur, münasibət bildirə bilmir. Bax, bu zaman yazıçının nəyə qadir olduğunu təsəvvür etmək olar. Zənnimcə, Ulduz Qasım kimi sənətkarların söz alovları düşüncə buzlarını əritmək gücündədir. Artıq yuxarıda qeyd etdiyim kimi, yazıçını isə cəmiyyətə yaxınlaşdıran, yazıçının yaratdıqlarının düşüncələrə yol tapmasına kömək edən əsas amillərdən biri də tənqidçilərin, publisistlərin yaratdıqlarıdır. Bu mənada "Yazıçının vətən dağı" kitabının hansı əhəmiyyəti kəsb etdiyinin artıq şərhə lüzum yoxdur.

Mən "Yazıçının vətən dağı" kitabının nəşrinə xüsusi məsuliyyətlə yanaşmağa çalışmışam. Bunu özümün Qarabağ uğrunda mübarizə borcum kimi qavramışam. II cildin nəşrə hazırlanması zamanı (elə I cilddə də) kitabın mətbəəyə təqdim olunan ilkin nüsxəsini diqqətlə vərəqləmişəm. Müəllifin hansı məsuliyyətlə yazıçının yaradıcılığını təhlil etməsini dəqiq müşahidə etmişəm. Ulduz Qasımın hər bir romanı Qarabağnamələr seriyasından çox dəyərli örnəkdir. Tənqidçi də xüsusi səliqə ilə yazıçının hər bir əsərini ayrılıqda xüsusi ardıcıllıqla təhlilə cəlb edir. Bu da oxucuya imkan verir ki, yazıçının zəngin yaradıcılığı ilə daha dərindən, daha əhatəli tanış olsun.

"Yazıçının vətən dağı" kitabının II cildi Ulduz Qasımın yaradıcılığı üçün nə deməkdir - sualına cavab üçün annotasiyanı ötəri də olsa, gözdən keçirmək daha faydalı olardı: "***Şair-publisist Əli Rza Xələflinin* "Yazıçının Vətən dağı" *(Ulduz Qasımın nəsr yaradıcılığı ədəbi-tənqidi düşüncələr müstəvisində) iki cildlik kitabının ikinci cildinə sənətkarın yaradıcılığının ikinci dövrü haqqında ədəbi-tənqidi qeydləri toplanmışdır. Bu cilddə yazıçının "Solmayan nərgiz", "Xocalı şikəstəsi", "Qaçaq Aslan"... kimi dəyərli əsərləri ətraflı təhlil olunub. Ulduz Qasımın nəsr yaradıcılığının bütöv mənzərəsi bədii ədəbiyyatımızda Qarabağnamələrin ən dəyərli nümunələrini özündə ehtiva edir. Əli Rza Xələfli yeni tədqiqat əsəri ilə yazıçı və oxucu arasında mükəmməl bir körpü yaratmağa çalışmışdır***". Göründüyü kimi, bu cilddə müəllifin, demək olar ki, ən möhtəşəm əsərləri diqqətə çəkilir. Qarabağ dəhşətlərinin dözülməz mənzərəsini Ulduz Qasım "Solmayan Nərgiz"də, "Xocalı şikəstəsi"ndə, "Qarabağda qiyamət"də və digər əsərlərində xüsusi istedadla yazıya gətirib. Bununla da gələcək nəsillər üçün Qarabağ yaralarının heç vaxt unudulmayacağına zəmin yaradıb. Kitabın redaktoru filologiya elmləri doktoru, yazıçı-publisist Elçin Mehrəliyev (o həm də birinci cildin redaktorudur) "Ulduzun vətən dağı"adlı qeydlərində yazıçı və tarixi hadisələr məsələsinə aydınlıq gətirməyə çalışır. Yazıçının, tənqidçinin, publisistin hansı məqamlarda eyni müstəviyə gəldiklərinə işıq salır: "*Son 30 illik mərhələ Azərbaycan ziyalısı üçün gərgin bir dövr olub. Bir tərəfdən dəyişən həyatın təzadları, cəmiyyətin sürətlə təbəqələşməsi, insanların kəskinləşən sosial problemləri, bir tərəfdən də torpağın erməni vandallarının işğalı altında olması xalqına, vətəninə bağlı olan hər bir ziyalını mənən əzirdi. Bu sırada ən çox ağrı çəkən, mən deyərdim ki, söz adamlarıdır; yazıçılardır, şairlərdir, tənqidçilərdir, publisistlərdir və s. Bu mənada tənqidçi ilə, publisistlə, ədəbiyyatşünaslıq tədqiqatları ilə məşğul olan yazarlarımızla həyatını bədii yaradıcılığa həsr etmiş söz adamlarının mənəvi mühiti bir-birinə çox bənzəyir. Əgər belə demək mümkünsə, onlar eyni müstəvidə birləşirlər*". Məlumdur ki, Ulduz Qasım ədəbi mühitimiz üçün kifayət qədər tanınan, təsadüfi olmayan sənətkardır. O hələ jurnalistlik dövründə insanları nəyin düşündürdüyünü yazı üslubu üçün əsas şərt hesab edib. Bununla da qələmi ilə xalqına xidmət etməyi amal olaraq mənimsəyib. O, klassiklərin "qələmin müqəddəs vəzifəsi xalqa xidmət etməkdir" məramını bütün yaradıcılığı boyu əsas götürüb.

"Yazıçının vətən dağı" kitabı ilə tanış olanlar sənətkarı bir romançı kimi qavramaq imkanı əldə edirlər. Məlumdur ki, roman konkret olaraq hər hansı bir hadisədən yox, bütövlükdə həyatın özünü kompleks halında yazıya gətirməkdən ibarətdir. Bunun üçün yazıçıdan təkcə istedad, fantaziya tələb olunmur. Həm də böyük zəhmətkeşlik tələb olunur. Sənətkar sonsuz əziyyətlərə qatlaşaraq cəmiyyətdən aldığı informasiyanı, öz müşahidələrini, hadisələri məntiqi ardıcıllığı ilə qavrayaraq yazıya gətirir.

Burada bir məqama da diqqət yetirmək vacibdir. Ulduz Qasım artıq oxucularımıza məlum olduğu kimi Moskvada yaşayıb-yaradan sənətkardır. Onun sənət yolu Moskvada yaşamasından asılı olmayaraq məkan baxımından Azərbaycanla bağlıdır. O, hər hansı bir yazısına əvəz gözləmədən sənətinin məhz xalqa xidmət olduğunu bilərəkdən yazı yolu seçib. Əgər belə demək mümkünsə, o öz sənətinə mükafat olaraq əsərlərinin oxunmasını əvəz bilir. Görkəmli sənətkarımız Elçin Mehrəliyev bu məqamı da diqqətdən qaçırmır. Həm də fəal publisist, tənqidçi fəaliyyəti göstərən Xələflinin qeydlərinə əsaslanaraq yazır: "*Müəllif "Yazıçının vətən dağı" kitabında Ulduzun yazıçı təmənnasızlığına da diqqəti yönəldir. Axı biz çoxlarını tanıyırıq ki, heç yazdıqlarının keçmişdə deyildiyi kimi mürəkkəbi qurumamış necə məşhurluq iddiasına düşdüklərini də görmüşük. Ancaq vətən taleyini ideal kimi qavrayaraq bu yolda ömrünü sözün həqiqi mənasında şam kimi əritmək hər kəsə nəsib olmur. Xələfli Ulduz haqqında, zənnimcə, bəzi məqamlarda müşahidələri ilə mülahizə yürüdür və mən də bu müşahidələri dəqiq hesab edirəm: "...Ulduz Qasım ədəbi arenada "Ulduz" olmaq istəyi ilə yazmayıb. Yaradıcılığının bu günkü zamanınacan bəlkə heç məşhurluq iddiası da olmayıb. Ancaq sonsuz zəhmət, sözə ilahi şövqlə bağlılıq, yaratdığı əsərlərin mənsub olduğu xalqı bütün canlılığı ilə göstərə bilməsi sayəsində özü istəsə də, istəməsə də, onu tanıtmışdır. Özü də bütün yaradıcılıq eşqi, bütöv yazıçı olmaq obrazı ilə tanıtmışdır".Bircə onu əlavə etmək yerinə düşər ki, Ulduzun romanları illər boyu yaddaşın mənəvi ağrıları altında yaşamağın bəhrəsi olaraq ərsəyə gəlib*". Elçin Mehrəliyevdən gətirdiyimiz bu qeydin içərisində Xələflinin də qeydləri var. Və Xələflinin özü də yazıçı üçün zəhmətin nə demək olduğuna xüsusi diqqət yetirir. Çox aydın şəkildə qavramaq imkanımız olur ki, Ulduz Qasım sözün həqiqi mənasında bir əkinçi obrazıdır. O yorulmadan zəhmət tərini sözünün mayasına qatır və hadisələrlə bahəm uğurla irəliləyir. Oxucu onun yazdıqları ilə Qarabağ dəhşətlərini sanki təzədən yaşayır.

Ulduz Qasımın Qarabağnamələr seriyasından qələmə aldığı əsərlər sırasında "Solmayan Nərgiz"in xüsusi yeri var. Bu əsər sanki Ulduz Qasım yaradıcılığında Qarabağnamələr silsiləsinin başlanğıcı təsirini bağışlayır. Müəllifin əhatəli təhlilləri ilə görürük ki, əsərin qəhrəmanı ən dözülməz zillətlərə məruz qalır. Ona görə ki, o azərbaycanlıdır, o qarabağlıdır. Nərgiz ona görə bu zillətlərə məruz qalır ki, onun yeri-yurdu Cəbrayıldır, Mehdili kəndidir.

Canlı təhlillər əhalinin Arazdan necə zillətlə keçməsini göstərir. İnsanlar ölüm və olum arasında çarpışır.

Bu kitabı oxuyanda məni müxtəlif suallar düşündürdü, əlbəttə, bəzilərinə özüm də aydın cavab verə bilirəm. Yəni "Yazıçının vətən dağı" kitabının müəllifi sənətkarın yaradıcılıq mühitinə o qədər doğmalıqla necə yaxınlaşa bilib? Sənətkarın əsərlərini bu qədər əhatəli şəkildə necə qavramaq imkanı qazanıb? Zənnimcə, bu sualın cavabı aydındır. Yəni müəllif zəhmət çəkib, Ulduz Qasımın əsərlərini diqqətlə oxuyub. Sanki əsərləri özü yazırmış kimi həzm edib. Demək olar ki, hər bir obraz üzərində düşünüb. Bir sözlə, yazıçının mənəvi mühitini mənimsəyib. Ona görə də belə əhatəli və dolğun məqalələrlə yazıçının mənəvi mühitinə bu qədər dərindən münasibət bildirə bilib.

İkinci bir sual da məni düşündürür; Ulduz Qasım vətəndən uzaqda olduğu halda işğalın təfərrüatlarını bu qədər dəqiqliklə gec mənimsəyib. Mən özüm bu sualı belə cavablandırardım. Ulduz Qasım 40 il ərzində vətəndən kənarda olsa da, heç 40 gün də vətəndən ayrılmayıb. O həmişə vətənində olub.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Vətəndən ən müxtəlif yollarla aldığı informasiyanı varlığına yığıb, düşüncəsinə köçürüb və özü üçün bədii xronika xəritəsi tərtib edib; əlbəttə, mənəviyyatında. Amma bu sualı "Yazıçının vətən dağı" kitabının müəllifi özünəxas şəkildə cavablandırır: "*Vətənlə bağlı məlumatları vətəndən uzaqda yaşayan yazıçı ən müxtəlif yollarla əldə edə bilər. Amma bu gün bu müxtəlif yollar ifadəsi bir əsas yolla anlamı ilə əvəzlənib. Bu da sosial şəbəkədir. Yazıçının maraqlana biləcəyi hər hansı bir ərazi və hadisə istənilən andaca nəinki məkanı, təsir dairəsi, hadisənin içərisində olanlar - kimliklər belə, hətta video materiallarla birlikdə yazıçının məlumat bazasına çevrilir. Əlbəttə, bütün bunlar yazıçı üçün tam məlumat mənbəyi ola bilməzdi, əgər yazıçı ruh etibarı ilə axtarışında olduğu yerə, məkana, zamana bağlı olmasaydı*". Müəllifin qeyd etdiyi kimi Ulduz Qasımın vətən eşqi sönməyən vulkan kimi daim qaynayıb. Onun yazı həvəsi, yazı istəyi elə bir qarşısıalınmaz güc kəsb edib ki, Ulduz yazdıqca yaşadığı ağrılardan xilas ola bilib. Deməli, onun üçün yeganə çıxış yolu yazmaq olub.

Ulduz Qasımın "Solmayan Nərgiz" romanı ədəbi mühit tərəfindən xüsusi maraqla qarşılanıb. Bu əsərlə bağlı Vaqif Bəhmənli, Elçin Mehrəliyev, Tahir Aydınoğlu, Rəhilə Gülgün, Türkiyədən İmdat Afşar və bir çox başqaları mülahizələrini əsirgəməyib. İmdat Afşar Ulduz Qasımın ayrı-ayrı əsərlərindən danışarkən "xoşbəxt roman" ifadəsini işlədir. Bu ifadə də havadan yaranmayıb. Axı hər bir əsər öz canlılığı ilə cəmiyyətdə mövqe tutur. İnsanlarla ünsiyyət bağlayır. Ulduz Qasımın romanları da bu mənada oxucusu ilə canlı ünsiyyət qura bilən əsərlərdir. Əsərin xoşbəxtliyi isə elə bu amildən asılıdır.

Müəllif doğru olaraq qeyd edir ki, hər bir əsər mənəvi-psixoloji durumun, sənətkarın həyəcanlarının bəhrəsi olaraq doğulur. "Yazıçının vətən dağı" kitabının müəllifi sözünə davam edərək yazır ki, bir körpənin dünyaya gəlişini necə həyəcanla qarşılayırıqsa, yeni bir əsərin ruhumuza, varlığımıza gəlişini də eləcə sonsuz həyəcanlarla, hisslərlə qarşılayırıq. Mən dəfələrlə demişəm ki, bir çox oxuculardan fərqli olaraq mənim kitablarla xüsusi ünsiyyət istəyim var. Mən hələ kitab mətbəəyə daxil olanda onun mahiyyəti ilə tanış olmağa başlayıram. Və özüm üçün də bu tanışlığın xüsusi əhəmiyyət olur, yəni əsər haqqında müəyyən təəssüratlara malik oluram.

"Solmayan Nərgiz"in təhlili zamanı müəllif klassik düşüncə motivlərinə də istinad edir. Onun "İşıq yaradan sızar" başlığı ilə verdiyi qeydləri ayırca qeyd etmək istərdim. Başlığa çəkilmiş həmin ifadə müəllifin də bildirdiyi kimi, Cəlaləddin Rumidən gəlir. Doğrudan da, əgər göynək yoxdursa, əgər həyatdakı ağrılar acılar insanın varlığına sirayət etmirsə, belə insanın həyata baxışı görməyənin dünyaya bəsirət gözü olmadan baxışı kimidir. Deməli, Cəlaləddin Ruminin işığı yarada axtarmağı düzgün məntiqə hesablanıb. "Solmayan Nərgiz" romanı ilə bağlı müəllifin digər yazıları da xüsusi maraq doğurur: "Gücün sarsılmayan obrazları", "Əsirliyə qarşı dözümün gücü", "Həyat həqiqətləri və insan əzabları", "Zülmətdən işığa doğru", "İnamın solmayan Nərgizi", "Ağır sınaqlar yolu", "Sabaha doğru inamla", "Zəlzələlər dağıdır... yaradır", "Əsərdə son fəsil", "Və həyat davam edir"... Buradaca bir məqama da diqqəti yönəltmək istərdim. Müəllifin yazılara başlıq seçmək məharətini. O hər bir yazının ideyasını lakonik şəkildə ifadə edir və başlığa çıxarır.

"Yazıçının vətən dağı" kitabında ikinci bölmə "Xocalı şikəstəsi"nin yaralı səsi" adlanır. Məlumdur ki, Xocalı hadisəsi əsrin faciəsi kimi, demək olar ki, dünyanın bütün vicdanlı insanları tərəfindən etiraf olunur. Bu dəhşətləri məhz Azərbaycana aid olduğu üçün unutmamalıyıq - qənaəti ilə razılaşmıram. Çünki bu bəşəri cinayətdir. Biz Xocalı faciəsini ona görə unutmamalıyıq ki, bir də dünyada belə hadisələr baş verməsin. Bunun üçün birinci növbədə bu qətliamı törədənlər məhkəmə qarşısına çıxarılıb beynəlxalq səviyyədə mühakimə olunmalıdır. Müəllif Xocalı hadisəsini yaradan siyasi-psixoloji durumu dəqiq və aydın şərh edir: "*Azərbaycan tarixində qırğınlar, qətliamlar az olmayıb. Zaman-zaman işğal niyyəti ilə Azərbaycana soxulan qaniçənlər müqavimətlə qarşılaşanda yerli əhalini kütləvi şəkildə qətl etməklə qəzəblərini soyutmağa çalışmışlar. Şübhəsiz tarixdə baş verənlər nə qədər ağrılı olsa da, gələcəyi yaşamağın, daha təhlükəsiz yaşamağın dərsləri kimi öyrənilir. Ötən əsrin 80-ci illərinin sonunda Ermənistanda millətçi şovinistlər və tarixdə terrorçu, qisasçı bir partiya kimi (əslində terror dəstəsi kimi) formalaşmış daşnaqçılar Ermənistanda əsas mənbəyinə, söz sahibinə çevrildilər, real hakimiyyəti ələ keçirməklə türklərə qarşı düşmənçilik, kin və ədavət hisslərini açıq-aşkar büruzə verdilər. O vaxt onların imkanları olsaydı, nəinki Azərbaycanı, eləcə də bütün Türkiyəni darmadağın edərdilər, ancaq hələ ki...*". Bundan sonra müəllif bir çox kütləvi qırğın və qətliam hadisələrini də yada salır. Sonqmini, Xatını, Germici... və başqalarını. Əgər istəyiriksə ki, bir də tarixdə belə hadisələr olmasın, onda cinayətkarlar layiqli cəzalarını almalıdırlar. Belə bir məhkəmə prosesi olsa da, olmasa da, həmin cinayətkarların cəzasını yazıçılar, publisistlər, şairlər, heykəltaraşlar, bir sözlə, sənət adamları verməlidirlər. Sənətin dili ilə canilər layiq olduqları cəzanı almalıdırlar.




Müəllif "Xocalı şikəstəsi" ilə bağlı qeydlərində Ulduz Qasımın düşüncələrinə xüsusi yer ayırır. Buradaca Ulduz Qasımın həmin düşüncələrini oxucu özü diqqətinə çəksəydi yazıçının hadisəyə hansı ağrı ilə yanaşdığını aydınlığı ilə dərk edərdi. Həmin qeydlər göstərir ki, yazıçı Ulduz Qasım "Xocalı şikəstəsi" əsərini yazmaq üçün kifayət qədər informasiya hazırlığına sahib olub. O, həm şahidləri dinləyib, həm dəqiq faktları, rəqəmləri toplayıb, bununla da faciənin, dəhşətli qətliamın bütün miqyasını təsəvvüründə canlandıra bilib. Elə buna görə də əsəri yazmaq üçün mənəvi-psixoloji hazırlığa da malik olub.

"Xocalı şikəstəsi" haqqında "Yazıçının vətən dağı"kitabının müəllifi yazarkən özü də təkcə əsərlə kifayətlənmir. Aldığı məlumatı mənəvi mühitindən keçirir. Bununla da oxuculara hansı məqamların daha təsirli olacağını seçə bilir. Müəllifin "Qar üstündə yazılanlar" adlı qeydlərində "Xocalı şikəstəsi"nin yazılması üçün əsas olan və bütün zamanlarda yaddaşı qanatmaq gücündə olan məqamlara xüsusi diqqət yetirir. Əlbəttə, Xocalı hadisəsi bir anın, bir günün hadisəsi deyildi. Bu, düşmənin zaman-zaman hazırlaşaraq törətdiyi hadisə idi. Bu, əhalini müdafiə etməli olan hakimiyyət dairələrinin düşməni nələri törədə biləcəyini dərk etməməsi ilə bağlı idi. Bütün bunlar onu göstərir ki, Xocalı hadisəsini törədən qatillər münbit tarixi şərait əldə etmişdilər. Yazıçının kiçik bir hadisənin fonunda azca bir zaman kəsiyi içərisində yaratdığı mənzərəyə diqqət etmək bəs edər ki, başa düşək, o, Xocalı faciəsini yazmaq üçün hansı hissləri keçirib: *«- İmdadımıza çat, Allah! - Sus! Tez elə qızı da götür, girin ot tayasının içinə. Mən deməmiş çıxmayın ordan. Baxım görüm, yan-yörədə kimsə var, ya yox? Qonşuların səsi-küyü lap uzaqdan gəlir. Bəlkə lənətə gəlmişlər hamını qırıblar? Ov tüfəngini axurda gizlətmişdim... Gedim eşələyim, görüm tapırammı? Nə də olmasa, yaman günün yarağıdı. Allahdan, bayaq tövləyə girəndə əl fanarını götürmüşəm. Məryəm ətraf duymasın deyə imkanı çatan qədər səsini boğaraq vaysındı: - Oğlumu, balamı vurdular! - Əgər istəmirsən hamımız məhv olaq, sus, Məryəm! Tövlədə olmasaydıq, çoxdan o dünyalıq eləmişdilər. dediyimi eləyin. Eşidirsən, qızı da götür, ot tayasının içində gizlən. gözləyək, baxım görüm, neynirik... - Yox, səni tək qoyub heç yana gedən deyiləm. Qorxuram, Fərhad... - Ay qız, sənə deyirəm get! Eşitmirsən, vanövsəni? Allah göydən başımıza daş yağdırır, daş... Məryəm ətrafdan gələn atəş səslərindən hövllənib hər iki ovcunu qullaqlarına sıxdı. - Uzaqda deyillər, hər an qayıda bilərlər. səhər açılmamış necə olur-olsun, özümüzü meşəyə çatdırmalıyıq. Hava işıqlansa, heç! Cəld olun!*". Beləliklə, oxucunun heç xəbəri olmur ki, Xocalı qırğının baş verdiyi hadisələrin mərkəzinə necə düşür. Sanki oxucunun özü də həmin qırğınları öz gözləri ilə görür. Hadisənin dəhşətlərini öz canında hiss edir, varlığında duyur. Bu faciənə məqamları yaşayan əsərin qəhrəmanı Məryəmin özü də nə qədər millidirsə, nə qədər tanıdığımız insandırsa, bir o qədər də bəşəri obrazdır. İnsanlığa qarşı cinayət törədənlər üçün daha Məryəmin kimliyinin fərqi yoxdur. O müəllimdir, dinc sakindir, həkimin həyat yoldaşıdır - bəli, bunlar cinayətkarlar üçün heç bir əhəmiyyət kəsb etmir. Müəllifin burada da maraqlı başlıqlarla hadisələrin yazıçı tərəfindən yaradılan mənzərəsini ədəbi tənqidin, publisistikanın verdiyi imkanlar daxilində oxucuya çatdırmaq gücünü görürük;"Qanlı izlər, yaralı sözlər", "İnsanın əzabı daşımaq gücü", "Olum-ölüm arasında", "Döyüşə sevginin izi ilə", "Dözümlərin savaşı", "Amazonlar - savaş üçün doğulanlar", "İnsanlıq tarixinin səhifələri", "İnsanlığın birinci şərti", "Çaylar sakit axmır", "Əzəlindən uca insan", "Qələbə - sonun davamı"... Beləliklə, biz "Xocalı şikəstəsi"ndə insanlıq tarixinin ən dəhşətli səhifələrini vərəqləyirik. İnsanlığı qorumalı olanın nədən məhrum olduğunu görürük. Başa düşürük ki, çaylar sakit axmır. İnsanların daxili-mənəvi mühitindəki hisslər, duyğular daim sahilləri döyəcləyir və öz səsi ilə ətrafa nələrisə çatdırmaq istəyir. Amma müəllifin uca məramını da görürük. O, insanı, insanlığı öz ucalığında tərənnüm edir. Bütün hallarda Məryəmin sınaqlardan mərdanəliklə çıxması əslində insanlığın qələbəsidir.

Ulduz Qasımın maraqlı əsərlərindən biri də "Qarabağda qiyamət" adlanır. Müəllif bu əsərin təhlilinə də ayrıca bölmə olaraq yer verir. İndi artıq vəziyyət dəyişib, Azərbaycan dəmir yumruq kimi birləşib. Düşmən üzərinə bütün gücü və qəzəbi ilə yürüşə başlayıb. Bu əsər Qarabağ salnamələri sırasında qəhrəmanlığın tərənnümü baxımından ayrıca dəyərə malikdir. "Yazıçının vətən dağı" kitabında müəllif bu əsərin hər bir qəhrəmanını öz ucalığında təqdim edə bilir. Özü də təkcə insanları, ordunu yox, torpağın özünü də döyüşə hazır bir qəhrəman kimi göstərir. Biz bu əsərdə Azərbaycan əsgərinin dönməzliyini, inamını, inadını hiss edirik. Azərbaycan əsgəri təkcə yurd yerlərini yox, həm də təbiəti xilas etmək naminə döyüşə girib. Burada hər igid sərt bir qaya kimi canlanır. Biz, demək olar ki, hər epizodda Azərbaycan əsgərinin igidliyini müşahidə edirik. Yaddaşımızda da qəhrəmanlar unudulmaz anların oğulları kimi qalır.

Kitabda "Ağ göyərçinlər" romanında Şuşaya qayıdışın uğrunda mənəvi mübarizənin motivləri əks olunub.

Ulduz Qasımın maraqlı əsərlərindən biri də "Qaçaq Aslan" romanıdır. Bu roman mövzu baxımından bir qədər fərqlidir. İndiki zaman üçün çox aktual olan "Qaçaq Aslan" romanında biz cənubi Azərbaycandakı milli hərəkatın mürəkkəb mənzərəsini görürük. Bəli, bu əsərlə də Ulduz Qasım yazıçılıq missiyasını yerinə yetirərək bütöv Azərbaycan taleyi üçün məsuliyyət daşıdığını təsdiq etmişdir.

"Yazıçının vətən dağı" kitabını kitaba "son söz əvəzi" yazmış görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Yədulla Ağazadənin qeydləri ilə başa çatdırırıq: "*Vətəndən kənarda vətən üçün yazıb-yaradan sənətkarlar çoxdur. Taleyin hansısa dalğasının atdığı bir diyarda vətən üçün yazıb-yaratmaq o qədər də asan deyil. Gərək ruhunda, varlığında mənsub olduğun xalqın dəyərləri sarsılmaz güc olaraq yaşasın ki, cismən qopduğun yerlərdən mənən ayrılmayasan. Açığı, mən belə düşünürəm ki, elə vətən üçün yazıb-yaratmaq, mənsub olduğun xalqın dəyərlərini hifz etmək naminə sözü ən güclü vasitə olaraq seçmək elə həm də bəşəri dəyərlər uğrunda mübarizə aparmaq deməkdir. Məhz U.Qasım belə müəlliflərdəndir*". Zənnimcə, "Yazıçının vətən dağı" kitabının ikinci cildi də tədqiqatçılar üçün, ümumiyyətlə, söz-sənət xiridarları üçün dəyərli məlumat mənbəyi olacaq. Bu kitab milli tariximizin istiqlal dövründəki yaşantıları özündə əks etdirən maraqlı mənbələrdən biri kimi həmişə diqqətdə olacaq.

***09.03.2023***